# MOLLA PƏNAH VAQİFİN DÖVRÜ VƏ HƏYATI

**Asya Bəkirova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
E-mail: bekirova-asya@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* Ş.A. Mikayılov,
*ped.ü.fəls.dok.* Q.A. Əmircanova

***Açar sözlər:*** *azərbaycançılıq, xanlıqlar dövrü, aşıq poeziyası, qoşma, məsnəvi*
***Ключевые слова:*** *азербайджанство, период ханства, ашугская поезия, qошма, месневи*
***Keywords:*** *azerbaijani, period of khans, ashug poetry, qoshma, mesnevi*

Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir.

Gözəl şeir öz təravətini heç bir zaman itirmir. Əsrlər keçdikcə, nəsillər bir- birini əvəz etdikcə, əsl sənət əsəri olan şeirlər həmişə dillərdə əzbər olur, ürəklərə yol tapır, yaşadıqca yaşayır. Əsrlərin sınağından keçib unudulmayan, heş vaxt yaddan çıxmayan, öz təravətini itirməyən, əsrlərcə yaşadan klassik şerimizin ölməz əsərlərini yaratmış və bu gün 300 illiyini sevə-sevə qeyd etdyimiz sənətkarlardan biri Molla Pənah Vaqifdir.

Vaqif 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndində doğulmuş, əsl adı Pənah, atasının adı isə Mehdi ağadır. XVIII əsr Azərbaycan şairi, siyasi və ictimai xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri olmuş və orta əsrlər ənənələri ruhunda, yeni tipli, realist, şifahi xalq poeziyasına yaxın şeirlər yazmış şairlərdəndir.

M.P. Vaqif yaxşı təhsil görmüş, Qazaxda tanınmış alim və pedaqoq (din xadimi) Şəfi əfəndinin yanında oxumuşdu. O, təhsilini başa vurmuş, əvvəlcə Qazaxda, sonra isə Qarabağda mədrəsədə dərs demiş, burada da Molla Pənah adını almış, xalq arasında bu adla tanınmışdır.

Çox keçmir ki, Gürcüstan sərhəddində gərginlik yaranır və bir çox ailələr Qazaxdan Qarabağ və Gəncəyə köçürülürlər. Bu zaman Vaqifin də ailəsi Qarabağın Tərtərbasar kəndində sığınacaq tapır və müəllimliklə məşğul olur. Kiçik bir kəndin mollasının aldığı cüzi maaş böyük bir ailənin maddi ehtiyaclarını ödəmədiyindən, onun ailəsi ehtiyac içərisində yaşayır. Qarabağa gəldikdən az sonra Vaqif Tərtərbasardan Şuşaya köçür, məktəb açır, şəhər sakinlərinin hörmətini qazanır. Həm gözəl, savadlı müəllim, həm də istedadlı şair olaraq tanınmağa başlayır və şöhrətlənir. Şairin şöhrəti Qarabağ hakimi İbrahimxəlil xana çatır və onu saraya dəvət edir. Vaqif az müddət ərzində öz ağıl və istedadı ilə böyük nüfuz qazanır, xanlığın bütün daxili və xarici işlərini öz əlinə alır, təxminən 27 il müddətində sarayın ən mötəbər adamlarından biri kimi şöhrəti daha da artır.

Vaqifin saraya gəlməsi barədə bir neçə rəvayət mövcuddur. Bunlardan biri ondan ibarətdir ki, Vaqif ayın tutulması və zəlzələ olacağı barədə əvvəlcədən dəqiq xəbər verir və bu xəbəri xana çatdırırlar. Vaqifin dərin ağıl və zəkasından heyrətə gələn xan onunla tanış olmaq istəyir, sarayda qalıb işləmək təklifini edir. İkinci rəvayət isə hələ Gəncədə ikən Vaqif Gəncə xanı Cavad xana bir şikayətçinin dilindən ərizə yazır. Ərizənin yazılış tərzi, üslubu xanı o qədər valeh edir ki, Molla Pənah Vaqifi saraya gətirdir. Lakin sonradan İbrahimxəlil xanın təkidli xahişi ilə onun Qarabağa qayıtmasına icazə verir.

Aydındır ki, Vaqif ömrünün axırına qədər sarayda yaşayır. O, əvvəlcə eşikağası, yəni daxili işlər naziri, daha sonra isə baş vəzir kimi fəaliyyət göstərir. Özünün yüksək elmi biliyi, savadı ilə burada da hamının rəğbətini qazanır. Vaqifin zəngin kitabxanası olduğundan, daim öz üzərində çalışır, biliyini artırırdı. Şəhər əyanları və ziyalıları arasında sayılıb-seçilməsi onun özünə ədəbi təxəllüs götürdüyü Vaqif adını (yəni, hər şeyi kamil bilən) doğrultduğunu göstərir.

Vaqif iki dəfə evlənib. Birinci xanımının adı Qızxanım, digərininki Mədinə olub. Onun bir oğlu, iki qızı olub. Oğlunun adı Əliağa idi. “Alim” təxəllüsü ilə şeirlər yazmış, gənc yaşlarında qətlə yetirilmişdi. O, Molla Vəli Vidadi, Hüseyn xan Müştaq, Ağqız oğlu Piri kimi şair-

lərlə dostluq etmişdi. Onun ən yaxın dostu və qohumu Vidadi olmuşdur. Vaqif öz qızlarını Vidadinin oğlanlarına ərə vermişdi. Onların şeirləşməsi hər iki şairin yaradıcılığında mühüm yer tutur. Vaqif 22 il Şəki xanı olmuş Hüseyn xan Müştaqla da şeirləşmişdi.

Bütün həyatını xalqa, vətənə xidmət işinə sərf etmiş xalqıyla yaxından bağlı bir yaradıcılığa malik şairin həyat yolu faciə ilə bitir. Belə ki, 1797-ci ildə Şuşa qalasını işğal edən Qacar Vaqifi də zindana saldırır. Lakin Vaqif, Qacarın öldürülməsi ilə əlaqədar olaraq həbsdən qurtarır. Bu münasibətlə yazılan "Ey Vidadi, gərdişi-dövrani-gəcrəftarə bax! Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!" misrası ilə başlayan şerində şair bu məsələyə toxunmuşdur.

Ağa Məhəmməd şah Qacarın məğlubiyyətindən sonra İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir xanlığı öz əlinə alır. Təzə Qarabağ xanı əmisinin bütün yaxın adamları kimi Vaqifə də pis münasibət bəsləyir və onu öldürmək üçün bəhanə axtarır. Bu zaman Vaqifin vəziyyəti daha da ağırlaşır. Nəhayət, Vaqif İbrahim xanın dalısınca qasid göndərib yazdığı məktubda xandan tez qayıtmasını xahiş edir. Lakin məktubu aparan qasid tutulur və Vaqifin xana yazdığı həmin məktub ələ keçir. Məhəmməd bəy Cavanşir 1979-cu ildə şairi oğlu Əliağa ilə birlikdə Şuşa şəhərində öldürtdürür. Böyük sənətkarın edam olunma səbəbləri tarixçilər arasında müxtəlif cür yozulur. Belə ki, danışırlar ki, qətl günü fərraşlar onları xanın yanına aparmağa gəldiklərini söyləyirlər. Yolda Əli bəy atasından soruşur ki, xan yuxarıda otura-otura bizi aşağı niyə aparırlar? Vaqif cavabında söyləyir: "Bizi çoxlarını göndərdiyimiz yerə aparırlar". Vaqifi Şuşa şəhərində böyük şərəflə dəfn edirlər. Hətta məzarının üstündə kiçik bir məqbərə də tikilir ki, bura da sonradan ziyarətgaha çevrilir.

Vaqif edam edildikdən sonra onun evi talan olunur, əlyazmaları yandırılır. Bütün bunlar Vaqif irsinin bizə qədər gəlib çatmamasına səbəb olur. Talan zamanı şairin əsərlərinin çox hissəsi itib-batmış, divan və əlyazmaları məhv edilmişdir. Ona görə də "Divan"ı da bu səbəbdən bizə gəlib çatmamışdır. Lakin xalq sevimli şairinin şeirlərini hafizələrində yaşatmış, müxtəlif vasitələrlə Vaqifin əsərlərinin müəyyən qismini mühafizə etməyə müvəffəq ola bilmişdir. Vaqif yaradıcılığının hafizələrdə qalan nümunələri isə bizə gəlib çatmışdır. Onları nəşr etdirmək heç də asan bir iş deyildi. İlk dəfə bu işi Mirzə Yusif Nersesov görür. Daha sonra M.F. Axundzadə zəngin material toplayaraq, məşhur şərqşünas Adolf Berjeyə verir və o da 1867-ci ildə Leypsiq şəhərində nəşr etdirir. Onu da deyək ki, inqilabdan sonrakı dövrdə Vaqifin əsərlərinin toplanması və nəşri sahəsində Salman Mümtazın böyük xidmətləri olmuşdur.

Vaqif lirikası ilə poeziyada yeni bir səhifə açılır. Realist şeirin ilk nümunələri onun adı ilə bağlıdır. Vaqif poeziyası təkcə azərbaycanlılar arasında deyil, həm də gürcü və s. mühitdə məşhur olmuşdur. Uzun müddət Azərbaycan dili Qafqazda millətlərarası ünsiyyət vasitəsi olduğundan, Vaqifin şeirləri yalnız Azərbaycan əlifbası ilə deyil, həm də digər xalqların əlifbaları ilə yazıya alınmışdır.

Vaqif yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular şairidir. Onun yaradıcılığında məhəbbət lirikası əsas yer tutur. Klassik şeirimizin əsas mövzusu olan gözəllik şairin lirik qoşmalarında yeni bir məna, yeni bir təravət kəsb edir. Aşıq şeirimizdən gələn yüksək dünyəvilik Vaqif lirikasında istiqamətverici rol oynayır. Onun qələmə aldığı gözəllər bütün xarici məlahəti və daxili zənginliyi ilə təsvir edilir.

Vaqifin əsərlərində Azərbaycan xalqının adət və ənənələri, yerli xüsusiyyətləri özünün parlaq əksini tapmışdır. Böyük şairin yaradıcılığında ruh yüksəkliyi və həyata bağlılıq əsas motivlərdən biridir. O, xalqdan qüvvət almış, xalq ədəbiyyatının nikbin əhval-ruhiyyəsindən qidalanmışdır. Şairin həyatda nikbin baxışını ifadə edən əsərləri içərisində onun Vidadi ilə deyişməsi daha səciyyəvidir. Həyata bağlı olan şair hətta qarşılaşdığı çətinlikləri belə toy-bayram hesab edir, "Toy-bayramdır bu dünyanın əzabı, Əqli olan ona gətirər tabı" deyir, həyatın hər anından bacarıqla istifadə edib ömür sürməyi məsləhət görür.

Heç təsadüfi deyil ki, görkəmli ədəbiyyatşünas alimlər, tanınmış şair və yazıçılar Molla Pənah Vaqifin kimliyi, nəyə qadir olduğu haqqında öz maraqlı fikirlərini söyləmişlər. Həmin fikirləri Sizlərin diqqətinə çatdırmağı lazım bilirəm:

*Vaqif təkcə böyük şair deyildi, o həm də görkəmli siyasi xadim və diplomat idi, xalq arasında da müdrik bir ağsaqqal kimi məşhurlaşmışdı *(xalq şairi Səməd Vurğun).*

*Vaqif şeirinin dili təbii və sadə olduğu qədər mənalı və dolğundur *(xalq yazıçısı Mirzə İbrahimov).*

*Vaqif istedadlı şair, eyni zamanda ictimai dövlət xadimi idi (*xalq yazıçısı İsmayıl Şıxlı).*

*Ədəbiyyatımızda S. Vurğun Vaqif obrazını əbədiləşdirdi. Vaqifi Vaqif edən sənətdir, Səmədi Səməd edən Vaqifdir (*akad. Məmməd Arif*).

Vaqif yaradıcılığı ilə Azərbaycan şeiri tarixində yeni dövr başlanır (*akad. Həmid Araslı).*

Deyilən, söylənən son dərəcə maraqlı fikirlər onu göstərir ki, Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatında tənqidi realizmin banisi, gözəllik və həqiqət, dünya və dünyəvi ideallar şairi kimi nikbin ruha bütün yaradıcılığı boyu sadiq qalır.

Biz də cəsarətlə deyirik ki, insan gözəlliyini sadə, bədii dillə ifadə etməkdə Molla Pənah Vaqif möcüzə yaratmışdır. Bu isə ədəbiyyatımız tarixində onun ən böyük xidmətidir.

## ƏDƏBİYYAT

1. H.M. Araslı. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 1960
2. A.M. Dadaşzadə. XIII əsr Azərbaycan poeziyası. Bakı: Maarif, 1966.
3. A.M. Dadaşzadə. M.P. Vaqif. Həyat və yaradıcılığı haqqında oçerk. Bakı: Maarif, 1967.
4. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. I cild. Bakı: Azərbaycan SSR EA-nın nəşri, 1960.

**Redaksiyaya daxil olub:** 12.10.2017

## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

# ŞƏXSİYYƏTİN FƏAL MÖVQEYİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN TARİXİ-PEDAQOJİ SƏCİYYƏSİ

**Emilya Hüseynova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*elmlər doktoru proqramı üzrə dissertant*
*ARTİ*
E-mail: emilya.huseynova95@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər:*** *şəxsiyyət, şagird şəxsiyyəti, şəxsiyyətin formalaşdırılması, fəal mövqe, tarixi-pedaqoji səciyyə*
***Ключевые слова:*** *личность, личность ученика, формирование личности ученика, активная позиция, историческая-педагогическая характеристика*
***Key words:*** *personality, personality of the pupil, formation of the pupil's personality, active position, historical and pedagogical characteristics*

İnsan yalnız sosial sistemin konkret bir elementi deyil, eyni zamanda kompleks bir quruluşa malik sistemdir. İnsanın inkişafından söz açılarkən şəxsiyyət anlayışı diqqət mərkəzinə gəlir. İnsan mürəkkəb və bütöv bir sistemdir, eyni zamanda daha mürəkkəb sistemin-bioloji və sosial sistemlərin komponentidir. Şəxsiyyət problemi yalnız müasir dövrdə deyil, əsrlərlə müxtəlif elm sahələri ilə məşğul olan alim və mütəfəkkirləri düşündürmüş, bu problemlə bağlı müxtəlif nəzəriyyələr və fikirlər irəli sürmüşlər.

Bu, bir həqiqətdir ki, insanlar yalnız gözlərinin və dərilərinin rənginə, görünüşünə, boy-buxununa, xasiyyətinə, barmaq izlərinə, səslərinin tembrinə görə deyil, eyni zamanda şəxsiyyətlərinin xarakteristikası baxımından da bir-birlərinə bənzəmirlər.

Prof. R.İ. Əliyev yazır: “İnsana münasibətdə müxtəlif anlayış və terminlər işlədilir: insan, fərd, fərdiyyət, şəxsiyyət. Görünür, şəxsiyyət insan varlığının müəyyən moduludur, yəni onun bir sıra keyfiyyət və vəziyyətinin təzahürü formasıdır. İnsan ən ümumi anlayışdır. O, bioloji növün (homo sapiens) klassifikasiyası olmaqla, daha çox biososial kateqoriyadır. Bioloji baxımdan “növ” – adam, psixoloji baxımdan isə “fərdiyyət” mənasında işlənilir. Fərd bioloji varlığın insan növüdür. Şəxsiyyət isə insanı digər bioloji canlılardan fərqləndirən sosial varlıqdır. Fəaliyyətin sosializasiyası prosesində insan şəxsiyyətə çevrilir. Yəni şəxsiyyətin keyfiyyətləri sosial mühitdən, sosial-iqtisadi vəziyyətdən, mədəni səviyyədən və s. çoxsaylı sosial amillərdən asılıdır” (1).

Leontevin qeyd etdiyi kimi, "şəxsiyyət doğulmur, şəxsiyyət təşəkkül tapır.”

J. Piajenin fikri də belədir ki, cəmiyyətdə hər dəqiqə minlərlə vəhşi doğulur və sivilizasiya onlardan sosial varlıq formalaşdırır. Məhz bu deyilənlərdən də məlum olur ki, insan həm bioloji, həm də sosial varlıqdır. Başqa sözlə, biososial varlıqdır.

Sosiallaşma dinamik xarakterə malik olduqca, şəxsiyyətin formalaşması bir o qədər daimilik daşıyır. Bu və ya digər fərdin özünəməxsus xüsusiyyətlərə yiyələnməyə haqqı var. Bu, onun sosiallaşma ilə genişlənən təbii göstəricisi hesab edilir. Şəxsiyyətin sosiallaşmasının zəruri məqamı onun öz-özünü aktuallaşdırmasından ibarətdir. Sosiallaşma şəxsiyyətin, o cümlədən məktəbli şəxsiyyətinin nümunəvi davranış təcrübəsini, norma və dəyərləri, cəmiyyətdə onun uğurlu fəaliyyətindən ötrü əhəmiyyətli və mühüm olanlara yiyələnməsi prosesidir. Odur ki, İ.S. Viqotski şəxsiyyəti ilk növbədə fəaliyyətdə olan varlıq kimi nəzərdən keçirir. Bu isə, təsadüfi deyildir. Şəxsiyyətin məqsədi, vəzifələri, davranış və hərəkətləri insanın fəaliyyətində meydana çıxır.

İnsanların, o cümlədən təhsilalanların qabiliyyətlərinə, meyil və maraqlarına, əxlaqına diqqət yetirdikdə onların bir-birindən seçildiyini görürük.

Odur ki, onları bir şəxsiyyət olaraq səciyyələndirmək yuxarıda sadalanan və yaxud başqa biofiziki xüsusiyyətlərinə görə xarakterizə etməkdən çox çətindir.

Bu səbəbdən də şəxsiyyət anlayışı son dərəcə mürəkkəb anlayış hesab olunur. Həmin mürəkkəblik bəzi amillərlə əlaqədardır.

R.N. Xəlilov yazır: "Şəxsiyyət probleminin öyrənilməsi baxımından "fərd" anlayışının izahı daha vacibdir. O, hər hansı bütövün bölünməz hissəsi kimi səciyyələnir. İnsan fərd kimi insan nəslinin ayrıca nümayəndəsi baxımından nəzərdən keçirilir. Fərd çoxsaylı insan varlıqlarından biridir və həmişə qeyri-şəxsiyyət kimi səciyyələnir. Bu mənada "fərd" və "şəxsiyyət" həm həcminə, həm də məzmununa görə bir-birinə əks anlayışlarıdır. Fərdilik insanım sadəcə olaraq bölünməzliyi deyil, hər şeydən əvvəl, onun təkliyinin və özünəməxsusluğunun xarakteristikasıdır" (2).

Psixologiya dərsliklərində və mövcud ədəbiyyatda bu amilləri aşağıdakı şəkildə diqqət mərkəzinə gətirirlər:

"1. İnsan şəxsiyyəti maddi və toxunula bilən, hiss edilən deyildir. O, bir sıra amillərin, şəraitin, imkanların və determinantların təsiri altında formalaşan psixoloji törəmədir.

2. İnsan şəxsiyyəti bir sıra amillərin təsirinə məruz qalsa da, yalnız onlardan asılı bir törəmə kimi şərh oluna bilməz, çünki o formalaşdığı həmin əsası dialektik olaraq rədd edir.

3. İnsan davranışının determinasiyasında şəxsiyyətin mühüm əhəmiyyət kəsb etməsi barədə çoxlu nəzəriyyə və konsepsiya mövcuddur ki, bunların bir çoxunun «şəxsiyyət» anlayışını şərh etməsi ziddiyyətlidir.

4. Nəhayət, şəxsiyyəti anlamaq insan fenomenini anlamaqla birbaşa əlaqədardır. Şəxsiyyət yalnız o zaman insanın əsası, özəyi kimi, onun başlıca parametri, onun eyniləşdirmə vasitəsi kimi şərh oluna bilər ki, antropologiya və insan haqqında biliklər insanın öz təbiətini anlamaq səviyyəsinə yüksəlmiş olsun" (3).

Qeyd edilməlidir ki, lazımdır ki, göstərmək hələ şəxsiyyətin araşdırılma imkanlarını məhdudlaşdırmır, əksinə, artırır.

"Şəxsiyyət" sözü Azərbaycan, rus və ingilis dillərində təxminən eyni etimologiyanı özündə birləşdirir. Dilimizdə geniş şəkildə işlənən bu söz ərəb dilindəki "şəxs" sözündən götürülmüşdür. Bu və ya digər konkret şəxsi nəzərdə tutur.

"Şəxsiyyət" sözü ingiliscədə - personality; beloruscada - асобу; ispancada – personalidad; macarcada – személyiség; serbcədə - личност; türkcədə - kişilik; özbəkcədə - shaxsiyat; ukrayncada – особистість; fransızcada – personnalité; çexcədə - osobnost; almancada - persönlichkeit; estoncada – isiksus; albancada – personalitet; bolqarcada – индивидуалност; italyancada – personalità; - qazaxcada - жеке тұлға; qırğızcada – личность; makedoncada – личност; litvaca – asmenybė; latışcada – personība; portuqalcada - personalidade; norveçdəcə - personlighet; polyakca – osobowość sözləri ilə ifadə olunur.

Yuxarıda qeyd etdiyimiz kimi, "şəxsiyyət" sözü ingilis dilində "*personality*" kimi işlədilir. Bu söz "*per*" və "*sona*" latın sözlərinə əsaslanır. "Vasitəsilə danışır" mənasını verir.

Qədim Yunanıstanda və Rim imperiyasında "şəxsiyyət" sözü teatr tamaşaları zamanı aktyorların "maskası" kimi başa düşülmüşdür. İllər ötdükdən sonra "persona" sözü hazırki məna yükünü almış, "personality" – "şəxsiyyət" mənasını ifadə etmişdir.

Rus dilində "şəxsiyyət" (*личность*) sözü isə, başlıca olaraq, "*лицо*", *"личина"* (sifət, üz) sözləri ilə əlaqədardır.

Deyilənlər göstərir ki, *insan şəxsiyyəti bilavasitə və bilvasitə onun siması, sifətidir*. Başqa sözlə, insanın üzü, sifəti və siması onun əsas identifikatoru hesab edilir. Beləliklə, üzün, sifətin xətləri, formaları, çevrəsi və başqa xüsusiyyətləri hər bir şəxsi digərindən fərqləndirir. Nəticə etibarı ilə insanın hansı yaş kateqoriyasına aid olduğunu müəyyənləşdirmək mümkün olur.

Biososial varlıq olan şəxsiyyətin səciyyəvi əlamətlərindən biri də onun fərdiyyətidir. Buraya insanın şəxsi xüsusiyyətləri, fərdi bacarıq və vərdişləri, fəaliyyət mexanizmləri aiddir. Öz şəxsiyyəti baxımından insan təkrarolunmazdır.

Bu və ya digər şəxsin sifəti onun emosiyalarının, hisslərinin, əhvalının, vəziyyətinin, arzu, istək və maraqlarının ifadəçisi kimi özünü göstərir. Şəxsiyyətlərarası münasibətləri qurmaqdan və tənzimləməkdən, ünsiyyət bağlamaqdan ötrü zəruri şərait yaradır.

Şəxsiyyətin təşəkkül tapıb formalaşmasından ötrü motivasiyanın yaranması zəruridir. Düzgün seçilmiş motivlər şəxsiyyəti məqsədəuyğun fəaliyyətə yönəldir.

Beləliklə, mövcud ədəbiyyata əsaslanaraq, belə bir fikir irəli sürmək mümkündür ki, "şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləşdirməsinə imkan verən davamlı fiziki və psixi xarakteristikasının məcmusundan ibarətdir. Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. *Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır"*(3).

Professor B.H. Əliyevin qənaətincə, "Şəxsiyyət bioloji, sosial və psixoloji münasibətləri inteqrasiya edərək, fərdin özünəməxsus simasının yaranması prosesidir. Məhz bu ierarxik münasibətlər sistemi inteqrativ bir keyfiyyət kimi şəxsiyyəti səciyyələndirir".

Prof. S.İ. Seyidovun fikri belədir ki, "Şəxsiyyət keçmişin şüursuz meylləri və gələcəyə şüurlu yönəlmənin qarşılaşdırılmasının imkan və təzahür vasitəsidir".

"Şəxsiyyət dedikdə, hər şeydən əvvəl, fərdi bu və ya digər cəmiyyətin üzvü kimi xarakterizə edən sosial keyfiyyətlərin sistemi nəzərdə tutulur. O, münasibət subyektinə, şüurlu fəaliyyət subyektinə çevrilir. Yəni şəxsiyyət ancaq şüur və mənlik şüurunun yaranması ilə birlikdə əmələ gəlir. Şəxsiyyət - yüksək düşüncəsi, öz hərəkət və davranışlar üçün məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən insandır. Şəxsiyyət – müstəqil, sosial, fəal olan adamdır. Əgər şəxsiyyət öz mahiyyətinə görə sosialdırsa, mövcudluq üsuluna görə fərddir" (3).

"Onları aşağıdakı kimi xarakterizə edə bilərik: 1. Şəxsiyyət o adamdır ki, başqalarını qavrayıb qiymətləndirməklə bərabər öz mənliyini də dərk edib qiymətləndirsin.

2. Şəxsiyyət o adamdır ki, mühitə aydın dərk olunmuş münasibəti olsun: -Cəmiyyəti təşkil edən insanlara münasibəti; -Onu əhatə edən əşyalara münasibəti; -Əməyə münasibəti; -Öz "Mən"inə münasibəti; -Adət - ənənəyə münasibəti.

3. Şəxsiyyət o adamdır ki, özünün əqidəsi, sərvət meyli var.

4. Şəxsiyyət fəal insandır. O adam ki, cəmiyyəti dəyişə bilir, təkmilləşdirə bilir, özünü də təkmilləşdirir, özünə nəzarət edir" (3).

İnsan, o cümlədən təhsilalanlar yaşlarının üstünə yaş gəldikcə, gündəlik fəaliyyətləri, böyüklərin – valideynlərin, müəllimlərinin tərbiyəvi təsirləri nəticəsində inkişaf edərək şəxsiyyət kimi formalaşır. Elə isə şəxsiyyətin formalaşması dedikdə, nə anlaşılmalıdır? İlk növbədə təbii, bioloji və anadangəlmə bərabər xarici amillərin, o cümlədən, təlim və tərbiyənin, sosial mühitin təsiri ilə meydana gələn inkişaf prosesi başa düşülür.

Burada bir məsələ önəmlidir, ona münasibətin bildirilməsi lazım gəlir. Nədir o məsələ? Bioloji və sosial amillər məsələsi. Şəxsiyyətin təşəkkül tapmasında bioloji və sosial amillər mühüm rol oynayır. Fəqət bu məsələsi mübahisəli şəkildə qalmaqdadır. Şəxsiyyətin təşəkkül bioloji amillər, yoxsa sosial amillər başlıca yer tutur? Unutmaq olmaz ki, insan bioloji, təbii quruluşa malik olsa da, o, tarixi inkişafın məhsuludur. Ona görə də onun hər bir psixi prosesi ictimai amillərin təsirindən asılıdır və onlarla şərtlənir. Həm də şəxsiyyətin mahiyyəti öz təbiəti baxımından ictimaidir. Bu, əsas verir deyək ki, insanın psixi xassə və keyfiyyətlərinin inkişaf mənbəyi və yaradıcı fəallığı sosial mühit və cəmiyyətlə bağlıdır. Onun psixi xassə və keyfiyyətləri və yaradıcı fəallığı sosial mühit və cəmiyyətin təsiri və köməyi ilə reallaşır.

Yuxarıdakı fikri irəli sürməklə o iddiada deyilik ki, şəxsiyyətin bioloji, təbii varlıq olduğunu qəbul etmirik. Bu, düzgün olmazdı. Söz yox ki, şəxsiyyətin psixi inkişafından ötrü zəruri təbii, bioloji imkan olmalıdır. Bioloji imkanlar dedikdə insanın beynə, sinir sisteminə və s. malik olması nəzərdə tutulur. Şəxsiyyətin təbii xassələri psixi inkişafdan ötrü vacib şərtdir. Fəqət təbii xassələr eyni zamanda nə insanın xarakterini və qabiliyyətlərini, nə də maraqlarını, əqidələrini və ideallarını müəyyənləşdirmir. Beynin quruluşu bir bioloji orqan olmaq etibairi ilə şəxsiyyətin əsasını təşkil edir. Şəxsiyyətin keyfiyyət və xassələri də ictimai varlığın məhsulu kimi özünü göstərir. Odur ki, normal beyinli uşaq cəmiyyətdən xaricində böyüyəndə şəxsiyyət ola bilmir. Hər bir şəxsin sinir sistemi ətraf aləmi dərk

etmək üçün müvafiq anadangəlmə imkanlarla şərtlənir. Bütün bunlarla yanaşı, insanın hər hansı qabiliyyəti onun fəaliyyət zamanı, ictimai həyat şəraitində təlim və tərbiyənin təsiri ilə formalaşır.

Bəs inkişaf dedikdə nə anlaşılmalıdır?

Prof. A.N. Abbasovun qənaətincə, "İnkişaf dedikdə, xarici və daxili, idarə olunan və idarə olunmayan amillərin təsiri ilə şagird şəxsiyyətinin təşəkkül tapıb formalaşması prosesi və nəticəsi anlaşılır. Başqa sözlə, inkişaf ana bətnindən başlayıb insanın doğulduğu andan kəmiyyətcə və keyfiyyətcə bir-birindən fərqlənən anatomik-fizioloji, psixoloji və mənəvi-intellektual dəyişikliklərlə şərtlənən prosesdir" (4, 59 ).

Mövcud ədəbiyyatda inkişaf anlayışına fərqli yanaşılır. Qeyd olunur ki, "inkişaf insanın fiziki qüvvələrinin daxili, sistemli, kəmiyyət və keyfiyyət dəyişikliklərinin obyektiv prosesidir".

Şəxsiyyətin inkişafı hər hansı canlı orqanizmin istər daxili istərsə də xarici, qüvvələrinin təsiri ilə baş verir və mürəkkəb proses xarakteri alır. Daxili təsirlərə Cəmiyyətin maddi həyatı – təbii və sosial mühit, valideynlərin və pedaqoji kollektiv üzvlərinin tərbiyə və təhsil alanlarda vacib mənəvi-ruhi keyfiyyətləri formalaşdırmaq istiqamətindəki sistemli, məqsədyönlü və fasiləsiz fəaliyyəti aiddir.

Şəxsiyyətin formalaşması ilə bağlı bir-birinə əks olan 3 nəzəriyyə mövcuddur: inkişafın endogen və ekzogen nəzəriyyəsi, tərbiyə.

Endogen (yunanca *endon* - daxili, *genes* - mənşə deməkdir) nəzəriyyələr insanın inkişafında bioloji amilləri əsas götürərək, irsiyyəti başlıca hesab edir.

"İrsiyyət nəzəriyyəsi" dini inamlara əsaslanan bir nəzəriyyə idi. Bu nəzəriyyə görə, guya uşaq alın yazısı ilə doğulur. Anadan olarkən sonrakı taleyi onun alnına yazılır. Əslində "İrsiyyət nəzəriyyəsi" uşaqları tərbiyələndirməkdə tərbiyəçinin rolunu son dərəcə azaldırdı.

İrsiyyətin rolunun hədsiz şişirdilməsinə dair Şərqin möhtəşəm sənət abidəsi olan "Kəlilə və Dimnə"də maraqlı fikirlər öz əksini tapmışdır. Oxuyuruq: "İlana sahibi nə qədər hörmət edib yaxşı qulluq etsə, fərqi yoxdur, yenə də xoşgünlərin birində ilan, sahibinin işıqlı gününü qaranlıq gecəyə çevirər" (5).

*"Ağ lövhə" (tabula rasa) nəzəriyyəsinin isə,* əsasında tərbiyə amili dayanır. Bu nəzəriyyəyə görə, şəxsiyyətin formalaşması tərbiyə nəticəsində mümkündür. ingilis filosofu Conn Lokkun (1637-1704) fikri belədir: dünyaya gələn uşağın alnı, beyni ağ lövhə kimidir. Bu "lövhə"nin üzərində nə istəsən yazmaq olar Con Lokk "İdeyaların fitriliyi" nəzəriyyəsini inkar edərək, Aristotel tərəfindən qaldırılan bu ideyanı əsas tutaraq, "Fabula rasa" (*ağ lövhə*) nəzəriyyəsini irəli sürürdü.

Həzrəti Məhəmməd peyğəmbərin də belə bir hədisi var: "Valideynin uşağa verdiyi ən böyük hədiyyə - tərbiyədir".

Ekzogen nəzəriyyələr yalnız sosial amillərin təsirini nəzərdə tutur. Həzrəti Əli irsiyyətə və tərbiyəyə nisbətən zəmanənin təsirini daha üstün tutur. Bu xüsusda deyirdi: "İnsanların öz ata-analarından zəmanələrinə daha artıq oxşarlıqları var". Şəxsiyyətin sosiallaşması ilə bağlı müasir burjua nəzəriyyələri ekzogen nəzəriyyələr sırasına daxil edilə bilər. Həzrəti Əli şəxsiyyətin təşəkkül tapıb formalaşmasında tərbiyənin roluna da yüksək qiymətləndirirdi. O, tərbiyə işində güzəştlərə yol verməməyi, ciddi olmağı məsləhət bilirdi. Aşağıdakı kəlamından bunu görmək mümkündür: "Hər bir kimsənin tərbiyə üsulu yumşaq olsa, onun övlad və törəmələri tərbiyəsiz olar".

Deyilənlərdən görünür ki, əslində insanın, o cümlədən şagird şəxsiyyətinin inkişaf edərək formalaşmasında hər 3 amilin – irsiyyət, mühit və tərbiyənin rolu böyükdür.

İnsanın şəxsiyyətə çevrildiyi dövrün bir hissəsi onun orta təhsil aldığı zamana düşür. Ümumtəhsil mərhələsi hazırda 11 ili əhatə edir. "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda orta təhsil müddətinin 12 ilə çatdırılmasını nəzərdə tutur. Bu heç də təsadüfi deyildir. Müəyyən pedaqoji, psixoloji və sosioloji əsaslara söykənir. Həmin dövr şagird şəxsiyyətinin formalaşması, onun özünü dərk etməsi, arzu, istək və maraqlarını müəyyənləşdirməsi, gələcəyini düşünməsi, özünə peşə seçməsi, həyata və əmək fəaliyyətinə hazırlanması dövrüdür.

Şəxsiyyəti yetişdirəcək müəllim özü də nümunəvi olmalı, bir şəxsiyyət kimi seçilməlidir. .

Yeni pedaqoji təfəkkür şəraitində cəmiyyətin qarşısında duran ümdə vəzifələrin həyata keçirilməsi ahəngdar və hərtərəfli inkişaf etmiş fəal şəxsiyyətin formalaşdırılmasından çox asılıdır. "Şəxsiyyətin inkişafı" anlayışı insanın şüu-

runda, fəaliyyətində və davranışında özünü göstərən real dəyişikliklərin ardıcıllığını, güclənməsini və mükəmməlliyini şərtləndirir. Şəxsiyyətin təşəkkül tapıb formalaşması ilə bağlı təkcə müasir təcrübəyə deyil, eyni zamanda pedaqoji və psixoloji fikrin zəngin ideyalarından faydalanmaq lazımdır. Azərbaycan mütəfəkkirləri, klassik və müasir pedaqoqlar, maarifpərvərlər şəxsiyyətin başlıca cəhətlərini onun cəmiyyətdəki münasibət və fəaliyyətində görmüşlər. Bu, təsadüfi deyil, təbiidir. Münasibətlər şəxsiyyətin, o cümlədən təhsilalanların həyat təcrübəsinin nəticəsi olaraq, onların fəaliyyətini və daxili hisslərini müəyyən edir.

Müasir dövrdə pedaqogika və psixologiya elmlərinin, fənlərin tədrisi metodikalarının, fəal və interaktiv təlim metodlarının, təhsildə innovasiyaların nailiyyətlərinin təlim prosesinə tətbiqi nəticəsində şagird nailiyyətləri təmin olunur. Şagird şəxsiyyətinin inkişafına öz müsbət təsirini göstərən ictimai təsisatlardan, təlim-tərbiyə müəssisələrindən, məktəbdənkənar uşaq müəssisələrindən, mədəni-maarif ocaqlarından, ictimai təşkilatlardan, KİV-dən, cəmiyyətin əsas hüceyrəsi olan ailənin köməyindən səmərəli istifadə olunması tərbiyəvi, təhsilləndirici və inkişafetdirici imkanları gücləndirir.

Şəxsiyyətin fəal mövqeyinin formalaşdırılması tarixi-pedaqoji səciyyəsini vermək üçün, təbii ki, mövcud ədəbiyyatı izləmək lazımdır. Əvvəla, "formalaşma" anlayışına münasibət bildirək. Ensiklopediya və lüğətlərdə "formalaşma", adətən "tam yetkinlik, bitkin inkişaf" mənasında işlədilir. Fəqət pedaqogikada bu anlayış bir qədər başqa çalarlara da malikdir. Belə ki, prof. Q.İ. Şukinanın yazdığına görə, "formalaşma insanın müəyyən həyat şəraiti, fəaliyyəti, məqsədəuyğun təlim-tərbiyə prosesində əldə etdiyi inkişaf fenomini dərinləşdirir. Məqsədəuyğun, mütəşəkkil tərbiyə prosesindən fərqli olaraq formalaşma çoxlu saydaxarici-obyektiv də daxili subyektiv şəxsiyyətə bəzi amillərin kortəbii şəkildə təsirini də özünə qəbul edir" (6, 9).

Prof. Q.İ. Şukinanın yuxarıdakı fikirlərinə münasibət bildirən akad. M.M. Mehdizadə göstərirdi: "Buna əlavə edəcək bir fikrimiz yoxdur. Ancaq daha aydın olmaq üçün demək istərdik ki, formalaşma təlimin, üç əsas funksiyasının: təhsil, tərbiyə və inkişafın təsirindən əlavə biz başqa amillərin də təsirinə məruz qalmaqla cərəyan edir" (6, 30).

Pedaqoji-psixoloji və fəlsəfi ədəbiyyatın araşdırılmasından görünür ki, şəxsiyyətin fəal mövqeyinin inkişaf etdirilməsi bir neçə istiqaməti nəzərdə tutur. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yollarını araşdıran akad. M.M. Mehdizadə ədəbiyyatda sosial fəallıq üçün məsləhət görülmüş üç istiqamətin fəal həyat mövqeyinin formalaşdırılması üçün də məqbul hesab etmişdir. Həmin üç istiqaməti diqqət mərkəzinə gətirək:

"1. İdrak fəallığı mövqeyi. 2. İctimai-siyasi fəallığı mövqeyi. 3. Əmək fəallığı mövqeyi" (7, 41).

Məsələyə bir qədər geniş şəkildə yanaşmaq lazımdır. Bu istiqamətləri yalnız fəal həyat mövqeyinin formalaşdırılması üçün məhdudlaşdırmaq məqsədəuyğun deyildir. Ümumiyyətlə şəxsiyyətin fəal mövqeyindən danışmaq və istiqamətlərin əhatə dairəsini daha da genişləndirmək olar. Şəxsiyyətin fəal həyat mövqeyi əslində şəxsiyyətin fəal mövqeyinin formalaşdırılmasının tərkib hissəsidir.

Fikrimizcə, şəxsiyyətin fəal mövqeyinin formalaşdırılması baxımından istiqamətlər aşağıdakı kimi müəyyənləşdirilə bilər:

1. Şəxsiyyətin fəal həyat mövqeyi.
2. Şəxsiyyətin idrak fəallığı mövqeyi.
3. Şəxsiyyətin ictimai-siyasi fəallığı mövqeyi.
4. Şəxsiyyətin əmək fəallığı mövqeyi.
5. Şəxsiyyətin fəal vətəndaşlıq mövqeyi.

Prof. Q.İ. Şukina təlim prosesində məktəbliləri fəal mövqeyə yiyələndirməyin bəzi priyomlarını qeyd edir. Həmin priyomlar hansılardır? Fikir verək: "1. Şagirdlərin öz fikrini müdafiə etməsi, onu əsaslandırmaq üçün arqument, dəlil, fakt gətirməsi, qazandığı bilik və təcrübədən istifadə etməsi; 2. şagirdin öz müəlliminə və cavab verən şagirdlərə əlavə sual verməsi, cavablara əlavə etməsi; qaranlıq qalan cavabları tamamlamağa çalışması; 3. Yoldaşlarının cavablarına inşalarına rəy verməsi; 4. Çətinliyə düşən yoldaşlarına yardım göstərməsi və s. (6, 146-149).

Şəxsiyyətin, o cümlədən şagirdin fəal mövqeyi dedikdə nə anlaşılmalıdır? Bizcə, təhsilalanın fəal mövqeyi dedikdə, şagirdin təlimə, zəruri biliklərə həyati təcrübəyə yiyələnməyə olan

fəal münasibətinin elə bir təzahür forması, elə bir fəaliyyəti nəzərdə tutulur ki, bu zaman o, təhrik olmadan könüllü surətdə öz qüvvə, bacarıq və qabiliyyətlərini sərf edərək, məsuliyyətlə və səmərəli şəkildə təlim tapşırıqlarını, üzərinə düşən işləri vaxtında və keyfiyyətlə yerinə yetirir.

**Problemin aktuallığı.** Yeni pedaqoji təfəkkür şəraitində şəxsiyyətin fəal mövqeyinin formalaşdırılması və bu əsasda şagirdlərdə vətəndaşlığın tərbiyə olunması öz aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Şəxsiyyətin fəal mövqeyinin inkişaf etdirilməsinin tarixi-pedaqoji səciyyəsi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Şəxsiyyətin fəal mövqeyinin inkişaf etdirilməsinin sahəsində araşdırmalar aparan dissertant və doktorantlara öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Əliyev R.İ. Şəxsiyyət haqqında nəzəriyyələr və yeni insan tərbiyəsi**.** “Təhsil problemləri” qəz., 2013, 24 iyun
2. Xəlilov R.N. Şəxsiyyət insanın sosial səciyyəsi kimi) http://tarix.info/maraqli/tarixi-meqaleler/1570-shexsiyyet-insanin-sosial-seciyyesi-kimi.html
3. http://kayzen.az/blog/psixologiya/18353/şəxsiyyət-haqqında-anlayış.html.
4. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
5. Kəlilə və Dimnə. Bakı: ADU-nun nəşri, 1961.
6. Щукина Г.И. Активизация познавательной деятельности в учебном процессе. М., 179.
7. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yollarını. Bakı: Maarif, 1982.


**Э.Р. Гусейнова,**

## ИСТОРИКО-ПЕДАГОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ АКТИВНОЙ ПОЗИЦИИ ЛИЧНОСТИ

### *РЕЗЮМЕ*


В статье представлена историко-педагогическая особенность развития активной позиции личности. В условиях нового педагогического мышления на передний план выдвигается проблема формирования активной позиции личности и на основе этого воспитание учащихся в духе гражданственности. Во время написания статьи автор обратился к идеям и высказываниям Пророка Мухаммеда, Хазрата Али, азербайджанских мыслителей, а также рассмотрел взгляды Леонтьева, Ж. Пиаже, И.С. Выгоцкого, психолога Б.Х. Алиева С.И., Сеидова, Р.Н. Алиева, педагогов А.Н. Аббасова, Р.Н. Халилова.

Статья будет полезна для диссертантов и докторантов, которые проводят исследования в области активного развития личности.


**E.R. Huseynova**

## HISTORICAL AND PEDAGOGICAL PECULIARITIES OF DEVELOPMENT OF ACTIVE PERSONALITY POSITION

### *SUMMARY*


The article presents the historical and pedagogical feature of the development of the active position of the individual. In the conditions of the new pedagogical thinking, the problem of forming an active position of the individual is put on the forefront and, on the basis of this, the education of students in the spirit of civic-mindedness. While writing the article, the author turned to the ideas and statements of the Prophet Muhammad, Hazrat Ali, Azerbaijani thinkers, and also considered the views of Leontyev, J. Piaget, I.S. Vygotsky, psychologist B.Kh. Alieva SI, Seidova, RN Aliyev, the teachers of AN. Abbasova, RN Khalilov.The article will be useful for dissertators and doctoral students who conduct research in the field of active personality development.


**Redaksiyaya daxil olub:** 22.11.2017